Yazan
29.11.13 20:32 -



"Mən Azərbaycanı, Gürcüstanı və Moldovanı Avropa İttifaqı ilə münasibətlərdə mühüm addımlar atmaq üçün cəsarətlə və ağır əmək sərf etməklə azad seçim etdiklərinə görə təbrik edirəm".

Bu barədə NATO-nun baş katibi Anders Foq Rasmussen Avropa İttifaqının Vilnüsdə keçirilən III "Şərq tərəfdaşlığı" sammitinin yekunları ilə bağlı bəyanatında deyib.

Baş katib qeyd edib ki, bu gün imzalanan sazişlər islahatları, ticarəti və humanitar əlaqələri gücləndirəcək, Avropada azadlıq, sabitlik və inkişafa töhfə verəcək:

"Mən "Şərq tərəfdaşlığı" proqramını alqışlayıram. Biz siyasi assosiasiya və iqtisadi inteqrasiya prosesini inkişaf etdirəcəyik. NATO bu məqsədləri bölüşür və təhlükəsizlik sahəsində əməkdaşlıq və tərəfdaşlıq yolu ilə dəstəkləyir".